**GÜLÇIN BABAYEVA**
**Filologiya üzrə fəlsəfə doktoru**
**AMEA Nizami adına Ədəbiyyat Institutu,**
**Hüseyn Cavid prospekti, 115**
**gulchin.babayeva@mail.ru**

# MƏHƏMMƏD FÜZULİ İRSİNİN TƏDQİQ TARİXİNDƏN

Məhəmməd Füzulinin həyatı və zəngin ədəbi irsi haqqında Şərqin etibarlı məxəzləri hesab olunan təzkirələrdə yer alır. B.Çobanzadə, S.Mümtaz, A.Sur, H.Araslı, F.Köprülü, H.Mazıoğlu, A.Qaraxan, Mir Cəlal, M.Quluzadə, R.Azadə, Ə.Səfərli, Ç.Sadıqoğlu, V.Feyzullazadə, T.Kərimli, A.Mirzəyev və başqaları Füzulinin həyat və yaradıcılığından bəhs edərkən, orta əsr təzkirələri haqqında zəngin məlumatlar vermişdir. Məlumdur ki, orta əsrlərin təzkirə müəllifləri Füzuli sənətinin əzəmət və ecazkarlığı qarşısında heyrətdə qalmışdır.

Məhəmməd Füzuli haqqında ilk qədim mənbə Qəstəmonlu Lətifinin "Təzkirətüş-şüəra" təzkirəsi hesab olunur. 1491-ci ildə Qəstəmonda anadan olan Lətifi Qanuni Sultan Süleymanın adına ithaf etdiyi bu əsəri 1546-cı ildə tamamlamışdır. Lətifi öz təzkirəsində Füzulinin "Bağdadlı Füzuli" təxəllüsü ilə şeirlər yazdığını, dövrünün şairlərinin fəzilətlilərindən olduğunu göstərərək yazır: "Bu dövr şüərasındandır. Məhəmməd Füzulinin həyat və yaradıcığı haqqında məlumat verən ən mükəmməl təzkirə Əhdi Bağdadinin "Gülşəni-şüəra" təzkirəsidir. Füzulinin müasiri olan Əhdi Bağdadi Azərbaycan türkcəsində yazdığı bu təzkirədə XVI əsr Bağdad mühitində yetişən azərbaycanlı şair və alimlər, o cümlədən Nişani, Baqi, Nihani, Tərzi, Füzuli, Hüsni, Rindi, Zöhdi, Muradi, Hüzni, Fəzli, Elmi, Kəlayi, Gərmi bəy, Fikri bəy və başqalarının həyat və yaradıcılığı haqqında geniş məlumat verir. Bundan başqa Əhdi Bağdadi məsnəvi növündə "Leyli və Məcnun" kimi dürri - gövhər yaradan Füzulinin neçə-neçə türkcə və farsca risalələr yazdığını, Mövlana Hüseyn Vaizinin təriqilə "Rövzətüş-şühəda"nı "Hədiqətüs-süəda" kimi tərcümə etdiyini qeyd edir. Əhdi Bağdadinin "Gülşəni-şüəara" təzkirəsi bu gün belə füzulişünaslıqda mötəbər mənbə olaraq əhəmyyətlidir.

Məhəmməd Füzulinin həyat və yaradıcılığı haqqında məlumat verən başqa bir mənbə Aşiq Çələbinin "Məşairüş-şüəra" təzkirəsidir. Onun məlumatına görə, Bağdad və Diyarbəkr müğənniləri Füzulinin yaratdığı şeirləri ifa edirlər. Aşiq Çələbi öz təzkirəsini 1568-ci ildə tamamlasa da, həmin dövrdə artıq Füzulinin vəfat etdiyindən xəbər tutmadığı bəlli olur.

Orta əsrlərin Füzuli haqqında məlumat verən qədim məxəzlərindən biri də Həsən Çələbinin (Xınalızadə) 1586-cı ildə yazdığı "Təzkirətüş-şüəra"sıdır. Həsən Çələbi həmçinin Füzulinin türk dilində "Xəmsə"si olduğunu, lakin "Leyli və Məcnun"un daha çox şöhrət tapdığını qeyd edir. Bundan əlavə, Füzulinin mükəmməl bir Divanı olduğunu qeyd edən Həsən Çələbi öz təzkirəsinə şairin lirikasından çoxsaylı beytlər daxil etmişdir. XVI əsrdə Füzulinin həyatı, dövrü və yaradıcılığı haqqında məlumat verən qiymətli mənbələrdən biri də Sadiqi bəy Əfşarın "Məcməül-xəvas" təzkirəsidir. Füzulişünaslıqda çox qiymətli olan bir faktı Sadiqi öz təzkirəsində vermiş və bununla da Füzulinin həyatına dair mübahisəli məsələlərə son qoymuşdur.

**Açar sözlər**: Füzuli,təzkirə,Lətifi,Əhdi Bağdadi, Həsən Çələbi

Məhəmməd Füzulinin həyatı və zəngin ədəbi irsi haqqında ilkin məlumatlar Şərqin etibarlı məxəzləri hesab olunan təzkirələrdə yer alır. Dünya və Azərbaycan ədəbiyyatşünaslığında təzkirələr müntəzəm şəkildə tədqiq obyekti olmuş, şairin şəxsiyyəti və yaradıcılığına dair araşdırmalarda bu məxəzlər əsas götürülmüşdür. B.Çobanzadə, S.Mümtaz, A.Sur, H.Araslı, F.Köprülü, H.Mazıoğlu, A.Qaraxan, Mir Cəlal, M.Quluzadə, R.Azadə, Ə.Səfərli, Ç.Sadıqoğlu, V.Feyzullazadə, T.Kərimli,

A.Mirzəyev və başqaları Füzulinin həyat və yaradıcılığından bəhs edərkən, orta əsr təzkirələri haqqında zəngin məlumatlar vermiş, orada mövcud olan qiymətli materiallara istinad etmişlər. Bu gün də Füzuli ədəbi irsinin tədqiq problemləri genişləndikcə, bu ilkin məxəzlər öz əhəmiyyətini saxlamaqdadır.

Məlumdur ki, orta əsrlərin təzkirə müəllifləri Füzuli sənətinin əzəmət və ecazkarlığı qarşısında heyrətdə qalmış, onun məna və bəlağətdə bənzərsizliyini xüsusi qeyd etmişlər. Təsadüfi deyildir ki, H.Araslı Füzuli irsinin öyrənilmə tarixinə nəzər salarkən yazırdı: "XVI əsrin ortalarından başlayaraq yazılan təzkirələrin hamısı Füzuli haqqında məlumat verir, onun şeirlərindən nümunələr göstərir və yaradıcılığını Şərq təzkirəçilərinə məxsus bir fəsahətlə tərifləyirlər". (1, 311)

Məhəmməd Füzuli haqqında ilk qədim mənbə Qəstəmonlu Lətifinin "Təzkirətüş-şüəra" təzkirəsi hesab olunur. 1491-ci ildə Qəstəmonda anadan olan Lətifi Qanuni Sultan Süleymanın adına ithaf etdiyi bu əsəri 1546-cı ildə tamamlamışdır. Lətifi təzkirəsinin Çorum nüsxəsi haqqında məlumat verən Səlahəddin Küçükün yazdığına görə, "Latifi tezkiresi, Anadoluda Sehi Beğin tezkiresinden sekiz yıl sonra yazılmış olan ikinci ve önemli bir kaynak eserdir. Latifi (ölm. 1582), bu eserini hazırlarken Ali Şir Nevayinin "Mecalisü`n-Nefais"ini, Molla Caminin "Baharistan"ını ve Sehi Beğ'in "Heşt Behişt"ini örnek almıştır; ancak, tezkirecimizin, tertip bakımından bu eserlere uymadığı, şairleri alfabe sırasıyla verdiği görülmektedir. Laitifînin "Tezkiretü'ş-Şu'ara"sı, şairleri alfabe sırasıyla veren ilk tezkiremizdir." (11, 279)

Məlumdur ki, hələ Füzulinin sağlığında qələmə alınmış bu təzkirə –müqəddimə, 3 fəsil və kitabın xətmi hissəsindən ibarətdir. 1-ci fəsildə- Şair-şeyxlər; 2-ci fəsildə-Şair padşahlar; 3-cü fəsildə - Sultan II Murad dövründə yetişən 300-dən yuxarı şair, o cümlədən Məhəmməd Füzulinin həyatı və sənəti haqqında məlumat verir. Buna baxmayaraq, Füzulinin doğum tarixi haqqında nə Lətifi təzkirəsi, nə də başqa mənbələrdə dəqiq məlumat yoxdur. Təzkirələrdə ən çox şairlərin ölüm tarixinin qeydə alındığını nəzərə almaqla, Füzulinin həyatı, şəxsiyyəti və mühitinə dair tədqiqat aparmış Türkiyə tədqiqatçısı Abdulqadir Qaraxan 1949-cu ildə yazdığı "Füzulinin həyatı, şəxsiyyəti və mühiti" əsərində təzkirələrə əsasən Füzulinin ölüm tarixinin təxminən 1495-ci ilə aid olduğunu qeyd etmişdir. (1,72) Bundan əlavə, başqa bir görkəmli türk alimi Hasibə Mazıoğlu Füzulinin doğum tarixinə həsr etdiyi "Füzulinin doğum tarixi məsələsi" adlı məqalədə şairin Əlvənd bəyə yazdığı qəsidəsinə əsasən, şairin bu qəsidəni qələmə alarkən, 25 yaşının tamam olduğunu yazır və bu hesablamaya əsasən, şairin 1480-cı ildə doğulduğunu təxmin edir. (10,13)

Lətifi öz təzkirəsində Füzulinin "Bağdadlı Füzuli" təxəllüsü ilə şeirlər yazdığını, dövrünün şairlərinin fəzilətlilərindən olduğunu göstərərək yazır: "Bu dövr şüərasındandır. Nəvai tərzinə qərib bir tərzdə və üslubi-əcəbi vardır." (9,133) Lətifi öz təzkirəsində Füzulinin:

Hansı gülşən gülbüni sərvi-xuramanınca var?
Hansı gülbün üzrə qönçə, ləli- xəndanınca var?,

- mətləli qəzəlini tam şəkildə vermişdir. Eləcə də:

Müqəvvəs qaşların kim, vəsmə birlə rəng tutmuşlar,
Qılıclardır ki, qanlar tökmək ilə cəng tutmuşlar (9,134)

- mətləsini, həmçinin "Leyli və Məcnun" əsərindən bir parçanı təzkirəyə daxil etmişdir.

Bundan əlavə, Lətifi Füzulinin Nizami "Xəmsə"sinə cavab yazdığını və məqbul beş ədəd əsəri olduğunu da qeyd edir.

Füzuli haqqında məlumat verən ikinci mənbə Sam Mirzənin "Töhfeyi-Sami" təzkirəsidir. Sam Mirzə öz təzkirəsini 1550-ci ildə fars dilində qələmə almışdır. Bu o deməkdir ki, bu təzkirə də şairin sağlığında yazılmışdır. O, Füzulini "Mövlana Füzuli" deyə adlandırmış, şairin Darüssəlam Bağdaddan olduğunu qeyd edərək yazır: "Orada Mövlana Füzulidən yaxşı şair peyda olmayıb, hər iki dildə türk və ərəb dilində şeir söyləyir və onun əksər şeiri dini mənqəbələrdən ibarətdir." (13,136)

Məhəmməd Füzulinin həyat və yaradıcığı haqqında məlumat verən ən mükəmməl təzkirə Əhdi Bağdadinin "Gülşəni-şüəra" təzkirəsidir. Füzulinin müasiri olan Əhdi Bağdadi Azərbaycan türkcəsində yazdığı bu təzkirədə XVI əsr Bağdad mühitində yetişən azərbaycanlı şair və alimlər, o

cümlədən Nişani, Baqi, Nihani, Tərzi, Füzuli, Hüsni, Rindi, Zöhdi, Muradi, Hüzni, Fəzli, Elmi, Kəlayi, Gərmi bəy, Fikri bəy və başqalarının həyat və yaradıcılığı haqqında geniş məlumat verir. Qeyd etmək lazımdır ki, indiyədək bir çox dünya tədqiqatçılarının araşdırmalarında əsas mənbə rolunu oynamış bu təzkirənin Sank-Peterburq Şərqşünaslıq İnstitutunda saxlanılan əlyazma nüsxəsi Azərbaycan alimi Vəcihə Feyzullayeva tərəfindən nəşrə hazırlanmışdır. Türkiyədə Solmaz Süleyman tərəfindən bu təzkirənin elmi-tənqidi mətni hazırlanaraq, 2005-ci ildə Ankarada nəşr olunmuşdur.

Əhdi Bağdadi öz təzkirəsinin "Mövlana Füzuli (aleyhir rahme)-i Bağdadi" adlandırdığı hissəsində şair haqqında yazmışdır: "Kəmal-i mə'rifətlə kamil və fünun-i fəzayil ile fazil şux-təb' ü şirin-söhbət və elm-i həndəsə vü hey'ət ilə əbdan-dan əhl-i hikmət və əhadis ü təfasir ile peyrəv-i şeri'at hadd-i zatında bənde-i əhl-i tarikatdür. Ol pir-i niku-hisal məzmun-i bəlağət-nümun bulmaqla bi-misal idi." (3,241)

Bundan başqa Əhdi Bağdadi məsnəvi növündə "Leyli və Məcnun" kimi dürri - gövhər yaradan Füzulinin neçə-neçə türkcə və farsca risalələr yazdığını, Mövlana Hüseyn Vaizinin təriqilə "Rövzətüş-şühəda"nı "Hədiqətüs-süəda" kimi tərcümə etdiyini qeyd edir. (3,241) Təzkirə müəllifi Füzulinin Nəvayi üslubunda türklər arasında şöhrətləndiyini, onun türk Divanının "Rum zərifləri" yanında məqbul sayıldığını də nəzərdən qaçırmır. O, Füzulinin:

Buraxdı xakə hüsnün aftab-ı 'aləm-arayı
Götürdi yer yüzindən mu'ciz-i lə'lün Məsiha'yı-

mətləli qəzəlini bütöv şəkildə (3,243) eləcə də, bir çox şeirlərindən beytləri nümunə olaraq öz təzkirəsinə daxil etmişdir.

Əhdi Bağdadinin "Gülşəni-şüəara" təzkirəsi bu gün belə füzulişünaslıqda mötəbər mənbə olaraq əhəmyyətlidir.

Məhəmməd Füzulinin həyat və yaradıcılığı haqqında məlumat verən başqa bir mənbə Aşiq Çələbinin "Məşairüş-şüəra" təzkirəsidir. Onun məlumatına görə, Bağdad və Diyarbəkr müğənniləri Füzulinin yaratdığı şeirləri ifa edirlər. Onların rəvayət etdikləri hekayələr Mövlana Füzulidəndir. Aşiq Çələbinin yazdığına görə, Sultan Süleyman Bağdada təşrif buyuranda, Füzuli padşahın dərgahına gəlmiş, padşaha və İbrahim Paşaya qəsidələr həsr etmiş, onlara məsləhətlər vermişdir. Sultan Süleymanın Bağdad vilayətinin mənafeyi və şairin maddi vəziyyəti üçün ona təqaüd ayrılmışdır.

Aşiq Çələbi həmçinin Füzulinin əsərlərinin bəlağətdə davamlı olmasını, qəzəllərinin eşq həyacanı ilə dolu olduğunu, qəsidələrində isə romantik və bədii olmasını göstərir, onun Peyğəmbərə həsr olunmuş nətinin yüksək sənətkarlıq nümunəsi olduğunu xüsusi vurğulayır.

Aşiq Çələbi öz təzkirəsini 1568-ci ildə tamamlasa da, həmin dövrdə artıq Füzulinin vəfat etdiyindən xəbər tutmadığı bəlli olur.

Orta əsrlərin Füzuli haqqında məlumat verən qədim məxəzlərindən biri də Həsən Çələbinin (Xınalızadə) 1586-cı ildə yazdığı "Təzkirətüş-şüəra"sıdır. O, Füzuliyə həsr etdiyi bölmədə şairin "Fəza-yi lətafət-iktizası deli - kəriman ü mən'iman gibi pəhna vü vəsi' və sahayi – lətafət-məsahası ... irfan-ı feyz-i muzahir gibi" bir guşədə, "şəhri-İrəm-ara və firdövs-təzyin olmaqla, bağidad olan" Darüs-səlam Bağdadda anadan olduğunu göstərir və Füzulinin həyatından vəfatına qədər şeir və yaradıcılığa səy etdiyini, "dilguşa nəzm ilə ali-məniş bir şair" olduğunu qeyd etməklə, "Neva'i tarzına karib bir üslub-ı bedi' vü semt-i garibi vardur", - söyləyir.(7,170)

Həsən Çələbi həmçinin Füzulinin türk dilində "Xəmsə"si olduğunu, lakin "Leyli və Məcnun"un daha çox şöhrət tapdığını qeyd edir. (7, 170)

Həsən Çələbinin Füzulinin həyatı haqqında verdiyi məlumatlar əvvəlki təzkirələrdən az fərqlənsə də, həyatına və əsərlərinin təhlilinə dair zəngin məlumatlar verir. O, iki İraqı fəth etmək üçün Darüs-səlam (Bağdad) diyarında çadırını bəzəyən Sultan Süleymanın cəlalına Füzulinin qoşduğu bir neçə misranı, həmçinin Xaqana həsr etdiyi "Gül" rədifli qəsidəsindən parçanı təzkirəyə daxil edir. (7,171) Bundan əlavə, vəzir İbrahim Paşaya, Mövlana adlandırdığı Qazi Qadir Əfəndi Çələbiyə ithaf etdiyi şeirlərdən bəhs edir və Füzulinin Xaqandan mükafata və hədiyyələrə layiq olduğunu xüsusi qeyd edir.

Həsən Çələbinin Füzulinin "Hədiqətüs-süəda" əsərinin bəlağət və fəsahətdə orijinallıqları haqqında obrazlı şəkildə söylədikləri mühüm əhəmiyyət kəsb edir: "Fi'l-hakika ol hadika-i enika-i reşikaya şol denlü nihal-i belagat dikmişdür ki, Hüseyn Va'izün Bərg ü Barın görmemişdür ve ol kadar reyahin-i fesahat ekmişdür ki buy-ı dil-cuyı meşamm-ı münşiyan-ı cihana irmemişdür." (7,171)

Bundan əlavə, Füzulinin mükəmməl bir Divanı olduğunu qeyd edən Həsən Çələbi öz təzkirəsinə şairin lirikasından çoxsaylı beytlər daxil etmişdir.

XVI əsrin əhəmiyyətli təzkirələrindən biri də Bəyani təzkirəsidir. Bəyani də Füzulinin "Darüs-səlam Bağdaddan" olduğunu söyləmiş və yaradıcılığı haqqında bunları yazmışdır: "Nevayi ile Türki ma-beyninde bir üslub-i bedi ihtiyar etmişdür. Tarzında fərid, səmtində vahid bir şa'ir-i bəlağat-şi'ar ve nazım-i fəsahat-disardur. Şe'ri rasin və nazmi rəngindür. Zəban-i Türkidə Hamsəsi vardur. Cümlədən "Leyla vü Məcnun"ı ziyadə iştihar bulmışdur. Hüseyn Va'izün "Ravzatü'ş-şüheda"sı tarzında "Hadikatü's-sü'əda"sı vardur. Hayli nəfîs kitâb olmışdur. Sefer-i Irakeynde Sultan Süleyman Hana "Gül" rədif bir latif kasidə vermişdür." (5,148-149)

Bəyani öz təzkirəsinə "Gül" qəsidəsindən mətlə və Füzulinin "Müretteb ü mükemmel divanı vardur" söyləyərək, Türk "Divan"ından: Ah eyledügüm serv-i hıramanun içündür

Kan agladugum gonce-i handanun içündür,-

qəzəlini və başqa qəzəllərindən beytlər daxil etmişdir.

XVI əsrdə Füzulinin həyatı, dövrü və yaradıcılığı haqqında məlumat verən qiymətli mənbələrdən biri də Sadiqi bəy Əfşarın "Məcməül-xəvas" təzkirəsidir. Füzulişünaslıqda çox qiymətli olan bir faktı Sadiqi öz təzkirəsində vermiş və bununla da Füzulinin həyatına dair mübahisəli məsələlərə son qoymuşdur. Onun yazdığına əsasən, Füzuli "Bayat elindəndir. İbrahim xanın xidmətinə Bağdada gedib, Xan mərhum Sultan Süleyman Xondgarın yanından köçüb İraqa gəldiyində, Mövlana Füzuli Hillədə sakin olur."(12,131) Sadiq bəy Füzulinin "Şahü-gəda" əsərinin də olduğunu söyləyir.

Sadiq bəyin "Məcməül-xəvas"ından sonra XVII əsrdə Riyazinin "Təzkirətüş-şüəra"sı (1607-1609), Faizinin "Zübdətül-əşar" (1621), XVIII əsrdə Lütfəli bəy Azərin "Atəşkədə" təzkirələri Füzuli haqqında qiymətli məlumatlar verən məxəzlərdir.

**Ədəbiyyat:**


1. Abdülkadir Karahan. Fuzuli, Muhiti, Hayatı ve Şahsiyeti,İbrahim Horoz Basımevi, İstanbul, 1949.
2. Araslı H. Füzuli irsinin öyrənilməsi tarixi, "Azərbaycan ədəbiyyatı:tarixi və problemləri", (Seçilmiş əsərləri), Bir cilddə, Bakı, Gənclik, 1998,732 səh.
3. Ahdi ve Gülşen-i şuarası (İnceleme-metin), (Haz.: Süleyman Solmaz), Denizli, 2009.
4. Aşık Çelebi Meşa'irü'ş-Şu'ara.Haz.: F. Kılıç. 3 cilddə, III c. İstanbul: İstanbul Araştırmaları Enstitüsü, 2010, 1739 s.
5. Beyani, Tezkiret`üş-şu`ara, (Haz.: Haz.: Hazırlayan Aysun Sungurhan Eyduran , Ankara, 2008, 280s.
6. Feyzullayeva Vəcihə, "Əhdi Bağdadi və onun «Gülşəni-şüəra» təzkirəsi", Ədəbiyyat məcmuəsi, 2000, s.198-205.
7. Kınalızade Hasan Çelebi, Tezkiret`üş-şu`ara, tenkitli metin (Haz.: Hazırlayan Aysun Sungurhan Eyduran, Ankara,2009,
8. Köprülü M.F.Fuzuli Hayati ve Eserleri, İstanbul -Yeni Şerq Kitablığı- Ebced – 1924
9. Latifi. Tezkiretü'ş-şuara, Ankara, Akçağ Yayınları, 1999.
10. Mazıoğlu Hasibe, "Ahdi Bağdadi ve Şiirleri" Türk dili araştırmaları Yıllığı Belleten, 1978-1979, s. 95-150.
11. Sabahattin Küçük. Latifi tezkiresinin Çorum nüshası, 279) http://dergipark.gov.tr/download/article-file/188140
12. Sadiq bəy Əfşar.Məcməül-Xəvas.(tərcümə,müqayisəli mətn,ön soz: Ə.Bağırov.)Bakı, "Elm",2008,412 s.
13. تحفه سامی، تالیف سام میرزا صفوی، با تصحیح و مقابله وحید دستگردی ، طهران- مطبه – ارمغان، 1314

**G.Babaeva**

## History of the study of the heritage of mohammed fizuli

### Summary

Muhammad Fuzuli invested an immence work for the elevation of level of literary XVI century.Initial information about Mohammed Fuzuli's life and rich literary heritage are found in the supposedly credible sources of the East. It is known that the authors of the medieval writings were amazed at the magnificence and majesty of Fuzuli's art, emphasizing its uniqueness and meaning in its essence. In the world and Azerbaijan literary criticisms were regularly studied, these facts are based on the poet's personality and creativity. The article presents the information contained Fuzuli's life and creativity in the works of the authors, such as Latifi, Ahdi Bagdadi, Sam Mirza, Hasan Chalabi, Beyani, Sadiq bey Afshar and researches their tezkires.

The most ancient source is “Tazkiretush-Shuara” of Kastamonlu Latifi. In 1491, Kastamonlu Latifi dedicated this work to the birth of Sultan Suleiman the Magnificent. The second source about Fizuli is “Tokhfei Sami”, the author of which was Sham Mirza. Sham Mirza wrote his work in Persian in 1550. But the most reliable information about the life and work of Mohammed Fuzuli was written in Ahzdi Baghdadi’s tezkire head “Golshane-Shuara”. Ahdi Baghdadi was a contemporary of Fizuli. İn the tachkire that was mentioned above, he gives information about XVI century poets and scholars such as Nishani, Bagi, Nikhani, Tarzi Husni, Rindi, and others who wrote in the Azerbaijani Turkic language. Another source that gives information about the life and work of Fizuli is "Mashariush-Shuara" wtitten by Ashyg Chelebi. He finished his tezkire in 1568. By that time Fizuli was not alive, but Chelebi did not know about it. Another of the ancient medieval sources is “Tezkiretush-Shuara”, written in 1586 by Gosan Chelebi (Khinalizade).

**Key words**: Fuzuli, tezkire, Latifi, Ahdi Bagdadi, Hasan Chalabi

**Г.Бабаева**

## История изучения наследия Мухаммеда физули

### Резюме

Мухаммад Физули проделал огромную работу, подняв уровень литературного развития XVI века. Первоначальные сведения о жизни Мухаммеда Физули и богатом литературном наследии находятся в предположительно достоверных источниках Востока. Известно, что авторы средневековых писаний были поражены великолепием и величием искусства Физули, подчеркивая его уникальность и смысл по своей сути. В мировом востоковедении и также в Азербайджане регулярно изучались данные источники, которые содержат ценные материалы о личности и творчестве поэта.

В статье представлена информация о жизни и творчестве Физули в произведениях таких авторов как Латифи, Ахди Багдади, Сам Мирза, Хасан Челеби, Бейани, Садик бек Афшар и исследования их тезкиров.

Самым древним источником считается «Тазкиретуш-Шуара» Кастамонлу Лятифи. В 1491 году Кастамонлу Лятифи посвятил это произведение рождению Султана Сулеймана Великолепного. Второй источник о Физули это «Тохфее Сами» автором которого являлся

Шам Мирза. Шам Мирза своё произведение написал на фарсидском языке в 1550 году. Но самые достоверные о жизни и творчестве Мохаммеда Физули написаны в тезкире Ахди Багдади «Гольшане-Шуара». Ахди Багдади являлся современником Физули. Выше упомянутом тачкире он даёт сведения о поэтах и учёных XVI века таких как Нишани, Баги, Нихани, Тарзи Хусни, Ринди и других которые писали на азербайджано тюркском языке. Другой источник который даёт сведения о жизни и творчестве «Машариуш-Шуара» автор Ашыг Челеби. Он закончил своё тезкире в 1568 году. К тому времени Физули не было в живых, но об этом Челеби незналю одним из древних средне вековых источников является написанная в 1586 году Госаном Челеби (Хынализаде) «Тезкиретуш-Шуара».

**Ключевые слова:** Физули, тезкире, Лятифи, Ахди Багдади, Хасан Челеби

Redaksiyaya daxil olma tarixi: 06.04.2019
Çapa qəbul olunma tarixi: 19.04.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Ataəmi Mirzəyev tərəfindən çapa tövsiyə olunmuşdur.